*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 41-47*

https://doi.org/10.62837/2025.10.41

**ŞƏHLA ƏLIYEVA**
Azərbaycan Dillər Universiteti
Azərbaycan Dilçiliyi Kafedrasının müəllimi
sehla.aliyeva.87@bk.ru
HTTPS://ORCİD.ORG/0000-0001-5875-3636

# FEİLİ BAĞLAMA TƏRKİBLƏRİNİN TƏDQİQİ

**Xülasə**

Feili tərkiblər dilin ifadə gücünü və struktur imkanlarını genişləndirən əsas vasitələrdən biri hesab olunur.Azərbaycan dilçilyində tərkib anlayışının inkişafı dilin tarixi təkamülünü dərk etmək üçün mühüm əhəmiyyət kəsb edir.Tərkiblərin funksional xüsusiyyətlərinin təhlili Azərbaycan dilinin sintaktik imkanlarını daha dərindən anlamağa və dilçilik sahəsində yeni araşdırma istiqamətlərini müəyyən etməyə kömək edir.Feili tərkiblərin o cümlədən feili bağlama tərkiblərinin sintaktik mövqeyinin araşdırılması Azərbaycan dilinin strukurunu daha dəqiq anlamağa imkan verərək mövzunu aktuallaşdırır.Məqalədə feili bağlama tərkiblərinin ad+feil,feil+feil,zərf+feil tipli bədii nümunələr əsasında dərindən təhlil olunmuşdur.

**Açar sözlər:feili bağlama,tərkib,sintaktik quruluş,feil**

**SHAHLA ALIYEVA**

**THE STUDY OF VERBAL CONJUNCTION CONSTRUCTIONS**

**SUMMARY**

Verbal constructions are considered one of the main means that expand the expressive power and structural possibilities of a language. The development of the concept of construction in Azerbaijani linguistics plays an important role in understanding the historical evolution of the language. The analysis of the functional features of constructions helps to understand more deeply the syntactic possibilities of the Azerbaijani language and to determine new directions for linguistic research. The study of the syntactic position of verbal constructions, including verbal adverbial constructions, makes it possible to understand the structure of the Azerbaijani language more precisely and highlights the relevance of the topic. In the article, verbal adverbial constructions of the types noun + verb, verb + verb, and adverb + verb are thoroughly analyzed based on artistic examples.

**Keywords: verbal adverbial construction, construction, syntactic structure, verb**

**РЕЗЮМЕ**

Глагольные сочетания считаются одним из основных средств, расширяющих выразительные возможности и структурный потенциал языка. Развитие понятия сочетания в азербайджанском языкознании имеет важное значение для понимания исторической эволюции языка. Анализ функциональных особенностей сочетаний помогает глубже понять синтаксические возможности азербайджанского языка и определить новые направления лингвистических исследований. Исследование синтаксической позиции глагольных сочетаний, в том числе деепричастных сочетаний, позволяет более точно понять структуру азербайджанского языка и подчёркивает актуальность темы. В статье деепричастные сочетания типов имя + глагол, глагол + глагол, наречие + глагол подробно проанализированы на основе художественных примеров.

**Ключевые слова: деепричастное сочетание, сочетание, синтаксическая структура, глагол**

Feili bağlama tərkibi ötən əsrin 50-ci illərində tədqiqat obyekti olmuşdur. Buna qədər belə konstruksiyalar feili bağlamanın özünün öyrənilməsi və tədrisi prosesində lazım gəldikcə diqqət mərkəzinə çəkilmişdir. Ə.Abdullayev türkologiyada feili tərkiblər və budaq cümlə problemi ətrafında getmiş elmi mübahisələri tabeli mürəkkkəb cümlə probleminin tədqiqat tarixi çərçivəsində şərh etmiş, yeri gəldikcə feili bağlama tərkibi və ümumiyyətlə feili tərkib məsələlərinə müraciət etmişdir [1, s.8-85]. Predikativliyin bir əlamətinin şəxs və kəmiyyət olduğunu diqqət mərkəzinə çəkmiş Ə.Abdullayev feili bağlamalardakı şəxs şəkilçilərinin zaman keçdikcə ixtisara düşdüyünü və onların daxil olduğu konstruksiyaların predikativlik xüsusiyyətini itirdiyini göstərmişdir [1, s.18]. Əslində, feili bağlama tərkiblərinin budaq cümlə ilə eyniləşdirilməsində bu amil əsaslı rol oynamışdır.

K.Abdullayev modallıq, zaman və şəxs ideyaları vasitəsilə reallaşan predikativliyin xalis formal səviyyədə feili və ya ismi formanın mübtəda ilə ümumi subyekt ideyasını ifadə edən şəxs əlamətinin birləşməsində cümlə formalaşdırıl-masına istinad edərək təkrar momentinin təzahür etməsini nəzərə çatdırmışdır. Sintaktik qapanma zərurəti sonda şəxs əlamətinin təkrarlanmasını gerçəkləşdirmişdir. *“Dilin qədim dövrü feili forma ilə mübtədanın əlaqəsini aydın göstərir. Əslində bu əlaqə çərçivəli formaya malik olduğundan Azərbaycan dilində cümlənin çərçivəliyi haqqında fikir söyləməyə əsas verir”* [3, s.10].

Feili bağlama tərkiblərini komponentlər arasındakı əlaqə üsullarına görə aşağıdakı kimi qruplaşdırmaq olar:

Ad+feil tipli feili bağlama tərkibləri
Feil+feil tipli feili bağlama tərkibləri
Zərf+feil tipli feili bağlama tərkibləri

**Ad+feil tipli feili bağlama tərkibləri**

Əvvəla, onu bildirək ki, ad + feili bağlama tiplərindən olan tərkiblər Azərbaycan dilində olduğca çoxşaxəlidir. Onlardan sadə quruluşda olanlar bunlardır: *mən girəndə, o yazdıqca, qatar uzaqlaşdıqca, biz görüşüncə, siz qayıtdıqda, nlar çatarçatmaz* və s.

İkinci, bu tipdən olan tərkiblərin komponentləri genişlənmək xüsusiyyətinə malikdir. Çünki bu birləşmələrin aparıcı tərəfi güclü idarəetmə xassəsinə malikdir və zaman anlayışı bildirdiyinə görə ya əşya, ya məkan, ya da zaman mənalı söz və ya söz birləşməsi tələb edir və həcmcə birləşməni genişləndirmək olur. Məsələn,

*Qatar vağzaldan bir xeyli uzaqlaşdıqca...*

*Biz uzun illərin ayrılığından sonra ilk dəfə görüşüncə..*

*Onlar su dəyirmanı tərəfdən kəndə çatar-çatmaz...*

Verilmiş feili bağlama tərkiblərində feili bağlamaların hər birinin semantikasında hadisənin davamının aydınlaşdırılması ehtiyacı aşkar hiss olunur. Yəni feili bağlama tərkibi bir hadisənin bağlanıb davam etməsi zamanında ikinci hadisənin meydana çıxması haqqında implisit informasiya hiss olunur ki, bu da feili bağlama tərkiblərinin qapanmaya meyilli olmasını təsdiq edir.

Müasir Azərbaycan ədəbi dilində feili bağlama yaradan şəkilçilər bunlardır: -*ıb (-ib, -ub, -üb), -dıqca (-dikcə, -duqca, -dükcə), -inca (-inca, -unca, -ünca), -diqda(-dikda, -duqda, -dükdə-diqda, -araq//-ərək, -madan//mədən, -mamış//məmiş, -anda//əndə, -arkən//ərkən, -məkən (-miskən, -muskən, -müşkən), -alı//-əli, -caq//cək, -a//-ə, ar-məz//-ər-məz.*

H.Mirzəzadə feili bağlama yaradan şəkilçiləri xronoloji aspektdə öyrənmiş, tarixən bir sıra şəkilçilərin, daha doğrusu, müasir dildə istifadə edilən şəkilçilərin variantlarını (məsələn, *-ıb, -ip, -iv*), eləcə də hazırda işlənməyən şəkilçiləri *(-ibən, -ubən, -übən, -ikən, -kən, -gəc, -ğac, -yu, -yü, -alı, -əli və s.)* qeyd etmişdir [5, s.170-179]. Ümumiyyətlə, H.Mirzəzadə 16 şəkilçini qeydə almışdır.

V.Əliyev yuxarıdakı şəkilçiləri göstərərkən belə bir ifadə də işlətmişdir. "*Əlbəttə, bu şəkilçilərin işləklik dairəsi müxtəlifdir. Belə ki, -ıb*$^{4}$*, -dıqda*$^{4}$*, -anda*$^{2}$*, -araq*$^{2}$*, -arkən*$^{2}$ *feili bağlama şəkilçiləri öz işləkliyinə görə digər feili bağlama şəkilçilərindən seçilir: -alı//-əli feili bağlama şəkilçisi isə arxaikləşməyə doğru gedir*" [4, s.49].

Yeri gəlmişkən, klassik ədəbi dilimizdə *-alı//-əli* şəkilçisi ilə işlənən nəinki feili bağlamalara az rast gəlmirik və hətta onların ad + feil tiplərini də tez-tez müşahidə edirik: bunlardan sən gedəli, mən biləli (hazırda isə mən biləni şəklində) dost biləli və s. tiplilər indi də işlənir.

Feili bağlamalar əsas feillə münasibətdə ya zamana, ya da tərzə görə əlavə hərəkət bildirir.

Hərəkətin zamanını bildirənlər qrupu: *-diqca, -inca, -dıqda, -araq, - anda, -aгkən, -caq, armaz//ərməz.*

Hərəkətin tərzini bildirənlər: *-araq, -ıb, -alı, -a//ə.*

*Düşüb - düşməyəli bu saraylara, Hələ rast gəlmədim vəfalı yara* (S.Vurğun) cümləsində düşüb-düşməyəli - zaman zərfliyidir.

Doğrudur, bəzi feili bağlamaların zaman və ya fərq bildirməsi məsələsində mübahisəli məqamlar da az olmamışdır və yaxud da indi də var. Mübahisə doğuran məsələlərdən biri *-ıb* morfemli feili bağlama tərkibinin sintaktik funksiyası ilə bağlıdır.

*Həsrəti gözümdə yaşa dönməyib,*
*Dostlar dönməsə*
*Cəbhədən geri.*
*Sanıram, torpağa, daşa dönməyib.(R.Həmzətov)*

mətnində *durna qatarına dönüb* — tərzi-hərəkət zərfliyidir, çünki həmin tərkibi *durna qatarı olaraq* şəklində işlətmək mümkündür. Bu mətndəki yaşa dönməyib tərkibi cümləni keşmiş zaman feilləri ilə ifadə olunan xəbəridir.

Ad + feili tipli tərkiblərdən, habelə, onların morfoloji, sintaktik xüsusiyyətlərindən danışarkən də bəzi spesifik cəhətləri də nəzərə almamaq olmur. Məsələn, adlıq hallı birləşmələrin yaradılmasında tərz bildirən şəkilçilər iştirak edə bilmir. Belə ki, mən alıb, sən gəlib tipli birləşmələr işlənmir.

Eksperimental müqayisələrimiz göstərir ki, *-ıb, -araq, - a,-ə, -madan* morfemləri ilə işlənən feillərin adlıq hallı birləşmələrin tabeedici komponenti kimi işlənə bilməsinin səbəbi tərzin feilə məxsus cəhət olması ilə əlaqədardır. Odur ki, nitqdə ad + feil tipli hərəkəti zamana görə tamamlayan tərkiblər işlənmir. Əgər belə nümunələr göstərilmiş olsa belə, biz həmin nümunələri üslubi məqam əlaməti olduğunu da sübut edə bilərik.

**Feil + feil tipli bağlama tərkibləri**

Vaxtilə bu məsələyə dair bir çox məqalə, dissertasiya yazılmış və Azərbaycan dili sintaksisinin birinci nəşrində ondan bəhs edilmişdir. Feil + feili bağlama tipli tərkiblərin mətnlərdə geniş yayılmış birləşmələri bunlardır: *Danışmaqdan yorulanda, Gəzməkdən qayıdanda, Qaçmağı bitirərkən, Düşünüb yorulanda, Görüşməyə gedəndə, Qayçılayıb atdıqca, Qazıb yerə tökəndə, Atışmağı saxlayanda, İncimədən dinlədikcə.*

Təbii ki, burada verilmiş birləşmələr subyektiv seçim əsasında toplanmışdır. Yəni feil + feil tipli birləşmələrdə hər iki tərəfdə feil olduğuna görə, semantik yozum imkanları artır, hər iki tərəfdəki hərəkət əlavə izahlar tələb edir. "Danışmaqdan yorulanda" feili bağlama tərkibində birinci tərəfdə çıxışlıq halda olan məsdər durur. İkinci tərəf isə feili bağlamadır. Subyektin birinci fəaliyyəti onun ikinci tərəflə təyin olunan vəziyyətini əmələ gətirir və bu ikinci tərəf subyektin yeni fəaliyyət tələbini ortaya atır. İkinci tərəfin birinci tərəfə semantik təsiri də mümkündür. Bu, birinci tərəfdəki fəaliyyəti ya dayandırmaq, ya intensivləşdirmək, ya da dəyişdirmək istəyi kimi qəbul oluna bilər.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 41-47*

Cümlədə bu cür birləşmələrin hər tərəfinə müvafiq sözlər artırılması ilə onları həcmcə mürəkkəbləşdirmək və sadə cümləni genişləndirmək mümkün olur. Məsələn,

*Danışmaqdan bir dəfəlik yorulanda* – feil + zərf + feili bağlama

*Gəzməkdən evlərinə qayıdanda* – feil + isim + feili bağlama

*Oxumağı başa vurub bitirərkən* – feil + feil + feili bağlama

*Görüşməyə şövqlə gedəndə* – feil + zərf + feili bağlama

Dilimizdə feili tərkiblərin müxtəlif növləri və bunların, bir çox məna variantları vardır. Onların öyrənilməsi bir çox məsələlərin izahına kömək edir. Buna görə də bu məsələ həmişə diqqət mərkəzində olmuş, Azərbaycan dilçilərinin bir çoxu bu problemli ilə məşğul olmuşlar.

Y.Seyidovun feili bağlama tərkibləri haqqında tədqiqatlarında belə tərkiblərin yaranma qanunauyğunluqları, feili bağlama tərəfinin hansı şəkilçi əsasında formalaşası, semantik və qrammatik xüsusiyyətləri araşdırılmışdır [6, s.109].

Feil + feil tipli feili bağlama tərkiblərinin cümlə üzvü vəzifəsi daşıdığı haqqında dilçilik ədəbiyyatında çox bəsit şəkildə danışılmış və belə tiplərin ya zaman zərflikləri, ya da tərzi-hərəkət zərflikləri rolunda çıxış etmələri göstərilmişdir.

Bütün bunlar tərkiblərin cümlə üzvü olması probleminin tərkib hissəsidir. Digər tərkiblər kimi, feili bağlama tərkiblərinin də əsas xüsusiyyəti əsas tərəfin, yəni feili bağlama tərəfinin ətrafına subyekt, obyekt və s. ifadə edən sözlər toplamasıdır. Feili bağlama tərkibi hərəkətlə bağlılığı olan müəyyən anlayışı ifadə edir. Feili bağlamada feilə məxsus olan iş bildirmə imkanı vardır. Bundan əlavə, feili bağlamada predikativliyi qəbul etmək xüsusiyyəti güclüdür.

Feili bağlama tərkibləri cümlədə onun müxtəlif üzvləri funksiyasını yerinə yetirə bilir. Daha çox tamamlıq və zərflik kimi cümlə üzvləri vəzifəsində çıxış edən feili bağlama tərkibləri komponentlərin sayından asılı olmayaraq bir üzvü ifadə edir. Buna görə də, onun tərkibini daha da genişləndirmək mümkündür. Bu baxımdan feili bağlama tərkiblərini mətndə rast gəlinən konkret tərkib üzrə deyil, feil bağlama şəkilçiləri əsasında tədqiq etmək lazım gəlir.

Feil-feil tipdən olan feili bağlamalarda sintaktik əlaqələr məsələsi də həmişə mübahisələrin mövzusu olmuşdur.*Gücdən düşər-düşməz, yüksələndə büdrədikcə, şumlayıb qurtardıqda, gələnləri görüncə, gözləməkdən bezdikdə, qanadlanıb uçarkən, gülə-gülə danışarkən, geriləməyi bacarmayanda* və s. tipli birləşmələrin cümlədə genişlənən formaların və müxtəlif üsullarla daha çox idarə və yanaşma ilə bağlandıqlarını müşahidə etmək olar.

**Zərf+feil tipi feili bağlama tərkibləri**

Dilimizin qrammatik quruluşu elədir ki, əlamət, say bildirən sözlər (adlar) əşyaya aid olduğu kimi, zaman, tərz, yer, səbəb, kəmiyyət bildirən sözlər də hərəkət bildrənlərə aid olur və həmin sözləri müxtəlif cəhətlərdən ya aydınlaşdırır, ya müəyyən edir, yaxud da təyin edir və s.

Feili bağlamalarda hərəkətlə bağlı mənalar olduğundan, zərf + feili tipli tərkiblərin yaranması və geniş dairədə işlənməsi də təbii hal kimi qəbul edilməlidir. Fikir verək: *Vidadi dünən gec gəlib çıxanda məndə qəribə şübhələ də qəribə şübhələ* Dilimizin qrammatik quruluşu elədir ki, əlamət, say bildirən sözlər (adlar) əşyaya aid olduğu kimi, zaman, tərz, yer, səbəb, kəmiyyət bildirən sözlər də hərəkət bildrənlərə aid olur və həmin sözləri müxtəlif cəhətlərdən ya aydınlaşdırır, ya müəyyən edir, yaxud da təyin edir və s.

Feili bağlamalarda hərəkətlə bağlı mənalar olduğundan, zərf + feili tipli tərkiblərin yaranması və geniş dairədə işlənməsi də təbii hal kimi qəbul edilməlidir. Fikir verək: *Vidadi dünən gec gəlib çıxanda məndə qəribə şübhələr yaranmışdı* (Y.Səmədoğlu); *Tez-tez danışdıqca, bic-bic də gülərək, arabir də qayıdıb baxdıqca bizi özümüzdən çıxarmırdımı?* (K.Kərəmoğlu); *Qəsdən-qəsdən bizi yandırıb-yaxmayınca o, əl çəkən deyildi* (X. Şuşalı); *Az danışanda, çox dinləyəndə daha hörmətli olursan* (Məsəl).

Feili bağlama zərf meyilli feil formasıdır, feili bağlamalara adverbial sözlər də deyirlər. Onların nitqdəki əsas fəaliyyəti zərf mövqeyində işlənməsidir. Qeyd olunmalıdır ki, onlar zərflər kimi qrammatik cəhətdən dəyişə bilməyən formalardır. Bununla belə, onlardan fərqli olaraq, onlar hərəkətin bilavasitə əlamətlərini bildirə bilmir, yalnız qrammatik cəhətdən hərəkətin əlamətini müəyyən edirlər. Ə.Abdullayev feili bağlama tərkiblərində mənsubiyyət şəkilçilərinin işlənməsi məsələsinə toxunulmuşdur. O həm feili sifət, həm də feili bağlama tərkiblərində şəxs əvəzliklərinin işləndiyi halları nəzərdən keçirmiş, daha əvvəlki dövrdə bu əvəzliklərin yiyəlik, feili bağlamaların, yaxud feili sifətlərin mənsubiyyət şəkilçisi qəbul etdiyini müşahidə etmişdir. Tədricən şəxs əvəzlikləri yiyəlik hal şəkilçisini itirmiş, bəzi türk dillərində, feili bağlama və feili sifətlər də isə mənsubiyyət şəkilçisi qalmışdır. Azərbaycan dilində feili bağlamada da müasir dildə mənsubiyyət şəkilçisi işlənmir: mən gələndə, sən gələndə, o gələndə və s. Bu hal sübut edir ki, feili bağlama və feili sifət tərkibləri possesiv quruluşa malikdir [2]. Bu onu göstərir ki, feili bağlama tərkibində possesivlik əlaməti güclüdür.

Feili bağlama tərkiblərini araşdırdıqdan sonra aşağıdakı nəticələrə gələ bilərik:

Ad + feil tipli bağlama tərkiblərinin morfoloji və sintaktik xüsusiyyətləri əlaqə və vəhdətdə təhlil müstəvisinə gətirilməlidir.

Zərf+feil tipdən olan tərkiblərin əmələ gəlməsi və cümlədə işlənməsini tələb edən qüvvə şəkilçinin daxilindəki zərf ünsürü ilə əlaqədardır.

Feili bağlama tərkiblərinin tədqiqat aqibəti 1960-cı ildən sonra məsdər və feili sifət tərkibləri ilə eyni şəkildə olmuşdur. Bu da təsadüfi deyildir. Feilin təsriflənməyən formaları həmişə bir üçlük kimi qəbul edilmişdir, əgər onlardan biri haqqında tədqiqat aparılmışdırsa, digər ikisi haqqında da düşünülmüşdür.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 41-47*

**ƏDƏBİYYAT SİYAHISI**

1. ABDULLAYEV, Ə FEİLİ SİFƏT VƏ FEİLİ BAĞLAMA TƏRKİBLƏRİ PASSİV QURULUŞA MALİK OLAN SÖZ BİRLƏŞMƏSİDİR // – BAKI: S.M.KİROV ADİNA ADU-NUN ELMİ ƏSƏRLƏRİ, – 1962. №3, – S.14-23.
2. ABDULLAYEV, Ə. MÜASİR AZƏRBAYCAN DİLİNDƏ TABELİ MÜRƏKKƏB CÜMLƏ Ə..ABDULLAYEV. – BAKI: MAARİF, – 1974. – 417S
3. ABDULLAYEV, K. AZƏRBAYCAN DİLİ SİNTAKSİSİN NƏZƏRİ PROBLEMLƏRİ / K.ABDULLAYEV. – BAKI: MAARİF, – 1998. – 281 S.
4. ƏLİYEV, V. AZƏRBAYCAN DİLİNDƏ FEİLİ BAĞLAMA / V.ƏLİYEV. – BAKI: APİ NƏŞRİ,-1989. 96S.
5. MİRZƏYEV, H. AZƏRBAYCAN DİLİNDƏ FEİLİN TƏDQİQAT TARİXİ // APİ-NİN ELMİ ƏSƏRLƏRİ, BAKI: APİ NƏŞRİ, – 1963, №2, – S.102-110
6. SEYİDOV. Y. AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ SÖZ BİRLƏŞMƏLƏRİ / Y.SEYİDOV. – BAKI: MAARİF, – 1966.-340

**Rəyçi: b/m.fil.f.d Almaz İbrahim qızı Bədəlova**